Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.

Heydər ƏLİYEV



AZƏRBAYCAN
SİLAHLI QÜVVƏLƏRİ

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 dekabr 2015-ci il № 98 (2014) Qiyməti 25 qəpik

## Dünya azərbaycanlılarına



Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.

Hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma Vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir. Ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. İlin əvvəlində təməli qoyulmuş TANAP layihəsi də daxil olmaqla, zəngin qaz ehtiyatlarımızın dünya bazarlarına nəqli sahəsində nəzərdə tutduğumuz planların gerçəkləşdirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi beynəlxalq aləmdəki rolunu daha da artıracaq, respublikamızın gələcək inkişafı və xalqımızın rifahının yüksəldilməsi yolunda yeni perspektivlər açacaqdır.

Bu il Azərbaycan böyük idman bayramına - Birinci Avropa Oyunlarına ev sahibliyi etmişdir. Qitənin 50 ölkəsinin idmançılarının iştirakı ilə keçirilən bu tədbir yüksək səviyyədə təşkil olunmuş, beynəlxalq ictimaiyyətdə dövlətimizin potensialı, xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi və tolerantlıq ənənələri barədə müsbət təəssüratlar yaratmışdır.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənmişdir. Noyabr ayında demokratik və şəffaf şəraitdə keçirilmiş növbəti parlament seçkiləri də cəmiyyətin nikbin əhval-ruhiyyəsinin, xalqımızın aparılan siyasətə dərin rəğbətinin parlaq təzahürü olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata və torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Hesab edirəm ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 dekabr 2015-ci il.

## Azərbaycan Prezidenti "TURAZ Şahini təlimləri" üçün Sahib Ölkə dəstəyinə dair Anlaşma Memorandumunu təsdiq edib

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında "TURAZ Şahini təlimləri" üçün Sahib Ölkə dəstəyinə dair 2015-ci il avqustun 14-də Bakı şəhərində və sentyabrın 18-də Ankara şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin bununla bağlı Fərmanına əsasən, Azərbaycanın Müdafiə Nazirliyinə Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsinin təmin edilməsi, Xarici İşlər Nazirliyinə isə sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə hökumətinə bildiriş göndərilməsi tapşırılıb.

### Pakistan mətbuatı:

## "İlham Əliyev: Biz mədəni və tarixi irsimizlə fəxr edirik"

Pakistanın "Centreline" jurnalı və "Diplomatic News Agency" informasiya agentliyi tanınmış jurnalist, NATO və Qafqaz üzrə mütəxəssis Mubasşar Əhməd Battinin "İlham Əliyev: Biz mədəni və tarixi irsimizlə fəxr edirik" sərlövhəli məqaləsini yayıb.

Məqalədə 2015-ci ilin iyununda Azərbaycanda keçirilən birinci Avropa Oyunlarından bəhs olunur. Bildirilir ki, bu mötəbər yarışlarda altı min idmançı iştirak edib, Azərbaycan idmançılarının oyunlarda ikinci yer tutmaları isə, sözün əsl mənasında, hamı üçün gözlənilməz olub.

Materialda bu gün Azərbaycanın beynəlxalq aləmdə özünəməxsus yer tutduğu bildirilir. Deyilir ki, ölkənin bütün təşəbbüsləri regional əməkdaşlığın gücləndirilməsinə istiqamətlənib. Qeyd olunur ki, öz enerji təhlükəsizliyini tam təmin edən Azərbaycan bu gün Avropanın enerji ilə təmin olunması istiqamətində irimiqyaslı layihələr həyata keçirir.

Azərbaycanın beynəlxalq aləmdə oynadığı rol dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir və məhz buna görə də Azərbaycan 155 ölkənin dəstəyini əldə edərək iki il müddətində BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub.

Yazıda Azərbaycan rəhbərliyinin siyasi və iqtisadi islahatları paralel aparması uzaqgörən addım kimi qiymətləndirilir. Deyilir ki, məhz buna görə bu gün Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib.

M.Ə.Batti Azərbaycan rəhbərliyinin apardığı iqtisadi siyasəti möcüzə adlandırıb. Jurnalist Azərbaycanın bu uğurlarını ümummilli lider Heydər Əliyevin və onun siyasi xəttinin layiqli davamçısı İlham Əliyevin adı ilə bağlayır.

Məqalədə məhz İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın Cənubi Qafqaz regionunda lider dövlətə çevrildiyi, Davos İqtisadi Forumunun məlumatına görə, ölkənin qlobal rəqabətə davamlılığına görə 38-ci sırada yer aldığı əksini tapıb.

Yazıda Azərbaycanın karbohidrogen ehtiyatlarının şaxələnmiş boru kəmərləri vasitəsilə dünya bazarına çıxarılması haqqında məlumat verilir, neft və qazdan əldə olunan gəlirin Neft Fondunda cəmləşdiyi vurğulanır.

M.Ə.Batti ölkədə nəqliyyat-kommunikasiya sektorunun inkişaf etdiyini, Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizinin iqtisadi və siyasi əhəmiyyətini diqqətə çatdırır, Çinin irəli sürdüyü qədim İpək Yolu üzrə iqtisadi zolağın yaradılması təşəbbüsünün Azərbaycan tərəfindən dəstəkləndiyini vurğulayır.

Məqalədə Prezident İlham Əliyevin sosial və humanitar sahənin inkişafına böyük diqqət yetirdiyi qeyd olunur, yoxsulluq və işsizliyin 5 faizə qədər azaldığı nəzərə çatdırılır. Azərbaycan Prezidenti İlham Əliyevin "qara qızılı insan kapitalına çevirək" konsepsiyasının özünü doğrultduğu, yüzlərlə azərbaycanlı gəncin dünyanın aparıcı ali məktəblərində təhsil aldığı, elmin və səhiyyənin inkişaf etdiyi diqqətə çatdırılır.

Yazıda Azərbaycanın dünyada artmaqda olan nüfuzunun 2012-ci ildə "Eurovision" kimi mötəbər mahnı müsabiqəsinin, 2015-ci ildə Birinci Avropa Oyunlarının baş tutması, gələn il "Formula-1" üzrə Avropa Qran-pri, 2017-ci ildə İslam Həmrəylik Oyunları, futbol üzrə Avropa Kuboku kimi yarışların keçirilməsinə zəmin yaratdığı bildirilib.

Məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edilir, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu məsələnin sülh yolu ilə həlli istiqamətində göstərilən səylər haqqında danışılır.

M.Ə.Batti məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasətin xalq tərəfindən dəstəkləndiyini, bu ilin noyabrında keçirilmiş parlament seçkilərində hakim partiyanın qalib gəlməsini bunun sübutu kimi dəyərləndirir.

Azərbaycanın Pakistan ilə münasibətləri haqqında məlumat verən müəllif bildirir ki, Prezident İlham Əliyev bu məsələyə xüsusi diqqət yetirir.

Jurnalist yazır ki, ölkələrimiz bir-birinin mövqeyini tam dəstəkləyir, bu il Pakistan Prezidenti Məmnun Hüseynin Azərbaycana səfəri və imzalanan sənədlər, keçirilən biznes forum bu əlaqələrin inkişafına öz töhfəsini verir.

Məqalənin sonunda qeyd edilir ki, Prezident Məmnun Hüseynin səfəri çərçivəsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Pakistanın ali "Hilal-e-Pakistan" ordeni ilə təltif olunmasını Mehriban Əliyevanın bu ölkədə həyata keçirdiyi layihələrlə yanaşı, Pakistanın Azərbaycan xalqına olan böyük sevgisinin nəticəsi kimi də qiymətləndirmək olar.

**AZƏRTAC**

### Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Azərbaycanda idman siyasəti düşünülmüş şəkildə aparılır

***Dekabrın 23-də Milli Olimpiya Komitəsində idman ilinin yekunlarına həsr edilmiş mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.***

Ölkəmizd gənclər siyasətinin tərkib hissəsi olan idmana yetərincə ciddi önəm verilir. Son illərdə respublikamızın bütün rayonlarında möhtəşəm idman qurğuları inşa olunub. Təkcə bir faktı vurğulamağa dəyər ki, Azərbaycanın müxtəlif bölgələrində indiyədək 41 Olimpiya Mərkəzi tikilərək gənclərin istifadəsinə verilib. On belə mərkəzin tikintisi isə inşaatçılar tərəfindən aparılmaqdadır. Bir sözlə, bu quruculuq prosesi bu gün də davam etdirilir və qarşıdan gələn illərdə də ölkə rəhbərliyinin maraq dairəsində olacaq. Nəticədə qazanan Azərbaycan gəncliyidir, gəncliyini sağlam, güclü, iradəli görmək istəyən Azərbaycandır.

Ölkəmizdə son illərdə, o cümlədən yola salmağa hazırlaşdığımız 2015-ci ildə idmana göstərilən qayğı parlaq nəticələrini verməkdədir. Ənənəvi növlərlə yanaşı, digər idman sahələri üzrə də federasiyalar yaradılır, tanınmış idman mütəxəssisləri gənclərin hazırlığına cəlb edilir, bir sözlə, idmanın diapazonu genişlənir. Beləliklə, Azərbaycan idmançılarının sorağı dünyanın ən mötəbər çempionatlarından, kubok və qran-pri yarışlarından gəlir. Pəhləvanlarımız bu yarışların təkcə iştirakçısı olmurlar, ən yüksək əyarlı medallar qazanaraq Azərbaycanın üçrəngli bayrağını qaldırırlar. Bu il mötəbər beynəlxalq çempionat və turnirlərdə Azərbaycan pəhləvan və atletləri 823 medal əldə ediblər. Onlardan 321-i qızıl medaldır.

Qeyd etməyə dəyər ki, Azərbaycan idmançılarının il ərzində qazandığı böyük nailiyyətlərdə ordu idmançılarının da özünəməxsus payı var. Onlar da ölkəmizin mötəbər beynəlxalq idman yarışlarında ləyaqətlə təmsil olunması, dünyanın böyük şəhərlərinə məxsus geniş idman salonlarında, stadionlarda himnimizin səslənməsi və bayrağımızın qaldırılması üçün güc və imkanlarını əsirgəməmişlər.

İdman respublikamızda əslində təkcə medallar qazanmaq naminə inkişaf etdirilmir, ölkəmizin gələcəyi hesab edilən gəncliyin sağlam böyüməsi dövlət rəhbərliyinin qarşıya qoyduğu başlıca məqsəddir. İdman dərnəklərinə cəlb edilən gənclərin sayının ilbəil artması Azərbaycanın uğurlu sabahından xəbər verir.

İdman ilinin yekunlarına həsr edilmiş tədbirdə çıxış edən Prezident İlham Əliyev ölkəmizdə idmana göstərilən qayğıdan, pəhləvan və atletlərimizin əldə etdiyi nailiyyətlərdən danışdı. Vətənimizdə idmanın uğurla, dinamik şəkildə inkişaf etdiyini söyləyən dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanda idman siyasəti düşünülmüş şəkildə aparılır. İdmançılara dövlət tərəfindən qayğı yüksək səviyyədədir. Hər il görkəmli idmançılarımızın məişət problemləri həll olunur. On ildən çoxdur ki, hər il 20-dən çox idmançıya, idman mütəxəssisinə dövlət tərəfindən mənzillər verilir. Bu da dövlət siyasətinin təzahürüdür. Çünki ölkəmizi beynəlxalq arenalarda ləyaqətlə təmsil edən, bizim dövlət bayrağımızı ucaldan idmançılar dövlət tərəfindən daim qayğı, diqqətlə əhatə olunmalıdırlar.

Bu gün dünya miqyasında Azərbaycanın idman dövləti kimi tanındığını bildirən Prezident İlham Əliyev çıxışında 2015-ci ildə paytaxtımızda Yay Olimpiya Oyunları səviyyəsində keçirilmiş Avropa Oyunlarına da toxundu: "Ümumi rəy belə idi ki, Oyunları bundan yüksək səviyyədə keçirmək mümkün deyil. Hətta bəzi idmançılar öz yarışlarını başa vurduqdan sonra ölkəmizdən getmək istəmirdilər. Olimpiya Kəndində qalmaq istəyirdilər. Çünki yaradılmış bu gözəl ab-hava onlara da çox xoş idi. Burada həm təşkilatçılıq, həm obyektlərin müasirliyi, yüksək səviyyəsi, eyni zamanda, Azərbaycan xalqının qonaqpərvərliyi xüsusi bir mühit yaratmışdı. Bu, unudulmaz günlər idi və Azərbaycan dünyaya nəyə qadir olduğunu göstərdi. Göstərdi ki, cəmi 24 illik müstəqillik dövründə biz böyük zirvələrə çata bilmişik".

2015-ci ilin digər yekunlarını da müsbət dəyərləndirən dövlət başçısı vurğuladı ki, bölgədə və dünyada iqtisadi böhran davam etsə də, Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. "Ancaq bildiyiniz kimi, neftin qiyməti bir il ərzində üç dəfə aşağı düşüb. Neft gəlirlərimizin aşağı düşməsi, təbii ki, milli valyutamıza da mənfi təsir etmişdir. Yəni, manatın məzənnəsinin dəyişdirilməsi qaçılmaz idi. Biz il ərzində çalışırdıq ki, bunun qarşısını maksimum dərəcədə alaq. Ancaq buna baxmayaraq, biz, əlbəttə, çalışacağıq ki, bu vəziyyətin fəsadlarını minimum səviyyəyə endirək".

İdmanın inkişafını hər bir ölkənin ümumi inkişaf göstəricisi hesab edən Azərbaycan Prezidenti dedi: "Əgər beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya Oyunlarında medal qazanan idmançıların vətəndaşlığına nəzər salsanız, görərsiniz ki, inkişaf etmiş ölkələrin idmançıları daha çox medal qazanırlar. Biz də inkişaf etmiş ölkə olmaq istəyirik, bu yolla gedirik və əminəm ki, biz buna da nail olacağıq".

Mərasimin sonunda 2015-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu. Prezident İlham Əliyev 2015-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançı və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri əsaslı təmir olunan yeni iki inzibati binanın açılışında iştirak edib

***<u>Dekabrın 25-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Şəxsi Heyət Baş İdarəsi və Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin əsaslı təmir edilmiş binalarının açılışı mərasimində iştirak ediblər.</u>***



Hər iki binada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılan zallarda ucaldılmış büstlərin önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib.

Müdafiə nazirinə məlumat verilib ki, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin yerləşdiyi ikimərtəbəli



bina 50-dək inzibati, xidməti iş otaqları, eləcə də beynəlxalq tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş bir neçə konfrans, sindikat və görüş zallarından ibarətdir.

Şəxsi Heyət Baş İdarəsi, onun tabeliyində olan idarə və xidmətlər üçün əsaslı təmir olunan üçmərtəbəli binanın 100-dək inzibati və xidməti iş otaqlarına yüksək texnologiyalı, geniş imkana malik telefon xətləri çəkilib, bütün kommunikasiya sistemləri yenilənib, ərazidə ağac və dekorativ gül kolları əkilib.

Hər iki idarənin şəxsi heyəti qarşısında çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq son vaxtlar maddi-texniki bazanın möhkəmləndirilməsini, müasir xidməti mənzillərin, yeni əsgər kazarmalarının, məişət obyektlərinin, müxtəlif təyinatlı xidməti və digər binaların tikilərək hərbçilərin istifadəsinə verilməsini xüsusi vurğulayıb: "Beynəlxalq hərbi əməkdaşlıq istiqamətində qarşıda duran əsas vəzifəmiz respublikamızın strateji maraqlarına uyğun olaraq, beynəlxalq təşkilatlar çərçivəsində və ikitərəfli əsasda hərbi əməkdaşlığı genişləndirərək haqq işimizi dünyaya çatdırmaqdan ibarət olmalıdır. Bunun üçün həm ikitərəfli, həm də çoxtərəfli beynəlxalq əməkdaşlıq inkişaf etdirilməli və ən vacibi dövlət maraqlarımız daim qorunmalıdır.



Şəxsi heyətin idarə olunmasında sosial ədalət və bərabərlik prinsipləri rəhbər tutulmalı, diqqət və qayğı hər an hiss edilməlidir. Dövlətimizin və xalqımızın qayğısı ilə şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün ayrılan imkanlardan maksimum istifadə olunmalıdır. Kadrların seçilməsi, yerləşdirilməsi, vəzifələrə təyin edilməsinə də planlı rotasiya qaydasında yanaşılmalı, hər bir şəxsin müsbət və mənfi cəhətləri aşkar edilməli və vəzifəyə təyin edilərkən bu amillər mütləq nəzərə alınmalıdır. Həvəsləndirmə, mükafatlandırma, cəzaların tətbiq edilməsində əsasnamələrin və nizamnamələrin tələblərinə ciddi əməl edilməli, nizam-intizamın daim möhkəmləndirilməsi üçün lazım olan bütün addımlar atılmalıdır.



Şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti ilə daim ciddi məşğul olunmalı, hər bir şəxsin qayğı və problemləri dərindən öyrənilməli, fərdi yanaşma prinsipi daim rəhbər tutulmalıdır. Aparılan bütün tərbiyəvi iş ümummilli liderimiz Heydər Əliyevin irsinə, milli-mənəvi dəyərlərimizə söykənməklə yanaşı, qabaqcıl təcrübə, iş, forma və üsulları özündə əks etdirməlidir.

Ən əsası isə heç vaxt unutmaq olmaz ki, ordumuzun ən müqəddəs vəzifəsi Dağlıq Qarabağın işğaldan azad edilməsidir. Son vaxtlar Silahlı Qüvvələrimiz cəbhədə düşmən üzərində üstünlüyə nail olub.

Qısa bir müddətdə düşmənin 20-dək canlı qüvvəsi məhv edilib, xeyli sayda yaralısı var, hərbi texnikası sıradan çıxarılıb, atəş nöqtələri susdurulub. Lakin əldə olunanlarla rahatlaşmaq olmaz. Bizim fəaliyyətimiz və cəbhədə tətbiq etdiyimiz taktika hərbi bölmələrimizin döyüş təcrübəsi qazanmasına imkan yaradaraq torpaqlarımızın tezliklə işğaldan azad edilməsinə yönəlməlidir".

Tədbir iştirakçıları yaradılan şəraitdən məmnun qaldıqlarını, göstərilən diqqət və qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə



və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Şəxsi heyəti qarşıdan gələn bayramlar münasibəti ilə təbrik edən Müdafiə naziri 2016-cı tədris ilində döyüş hazırlığının gücləndirilməsi məqsədilə nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi ilə əlaqədar müvafiq tövsiyə və tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Moskvaya rəsmi səfəri



Moskva şəhərində səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov dekabrın 23-də Belarus Respublikasının Müdafiə naziri general-leytenant Andrey Ravkov və Qırğızıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Janıbek Kaparov ilə ikitərəfli görüşlər keçirib.

Hər iki görüşdə ölkələrimiz arasında hərbi sahədə 2016-cı il üçün əməkdaşlıq planları imzalanıb.

* * *

Dekabrın 23-də Moskva şəhərində səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik



Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə görüşüb.

Görüş zamanı regional təhlükəsizliyin aktual məsələləri, həmçinin, Rusiya və Azərbaycan arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və vəziyyəti barədə fikir mübadiləsi aparılıb.

Müdafiə nazirləri hərbi sahədə 2016-cı il üçün əməkdaşlıq planını imzalayıblar.

* * *

Dekabrın 23-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinin Müdafiə nazirləri Şurasının Moskva şəhərində keçirilən növbəti iclasında iştirak edib.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov bir sıra ölkələrin Müdafiə nazirləri ilə ikitərəfli görüşlər keçirərək regional məsələləri müzakirə edib, hərbi sahədə əməkdaşlıq planları imzalayıb, hərbi təhsil, təlim və Silahlı Qüvvələrin inkişaf istiqaməti barədə fikir mübadiləsi aparıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində yeni fakültələr yaradılır

***<u>Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müdafiə Nazirliyi sistemindəki xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Sərəncam imzalayıb.</u>***

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi quru qoşunları, hərbi hava qüvvələri, hava hücumundan müdafiə və hərbi dəniz qüvvələri fakültələri yaradılmaqla, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qoşulur.

Sərəncamda Nazirlər Kabinetinə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin nizamnaməsinin layihəsini üç ay müddətində hazırlayıb Prezidentə təqdim etmək tapşırılıb.

## Serj Sarkisyan dünya ictimaiyyətini aldadır

Ermənistan Respublikasının prezidenti Serj Sarkisyanın Moskva şəhərində keçirilən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının kollektiv təhlükəsizlik Şurasının növbəti sessiyasında populist çıxışı coğrafiyadan anlayışı olmayan, qeyri-adekvat şəxsin danışması təəssüratını yaradır.

Azərbaycan ərazilərinin işğalında, günahsız insanların qətlində bilavasitə iştirak edən, terrorizmi, separatizmi, işğalçılığı dövlət siyasəti səviyyəsinə qaldıran S.Sarkisyan indi də bu cür yalan çıxışları ilə dünya ictimaiyyətinin gözünə kül üfürür və onları yanlış istiqamətə yönəltməyə cəhd göstərir.

Dünyada heç bir dövlət, hətta Ermənistan tərəfindən belə tanınmayan Dağlıq Qarabağda quldur dəstələrinə başçılıq edən, terror təşkilatları ilə isti münasibətlərdə olan və öz xalqını daim aldatmaq vərdişindən əl çəkməyən bu cani müxtəlif qurumlarda ziddiyyətli bəyanatları ilə "zavallı" xalqına mərhəmət və yardım dilənməklə məşğuldur.

Terrorizmə və separatizmə qarşı mübarizədə fəal iştirak edən Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş torpaqlarımızın azad edilməsi məqsədilə, dünya ölkələri tərəfindən tanınan sərhədlərimiz daxilində, terrorun, işğalçılığın və separatizmin kökünün birdəfəlik kəsilməsi üçün müvafiq tədbirlər görür və gələcəkdə də görəcəkdir..

## “Ermənistan ordusu atəşkəsi pozmağa davam edərsə, cavabımız daha sərt olacaq”

***<u>Azərbaycan Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, Ermənistan ordusu atəşkəsi pozmağa nə qədər davam edəcəksə, yaşayış məntəqələrimizi, dinc sakinləri nə qədər atəşə tutacaqsa, ona daha çox və daha iriçaplı üstün silahlarla cavab zərbələri endiriləcək.</u>***

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı deyib. O bildirib ki, hazırda Azərbaycan Silahlı Qüvvələri öz qüvvəsinin və arsenalındakı silahların çox cüzi bir hissəsindən istifadə edir: "Silahlı Qüvvələrimizin sərəncamındakı silahların dağıdıcı gücü, tətbiq dərinliyi, dəqiqliyi bundan dəfələrlə artıqdır. Erməni tərəfi də bunu yaxşı bilir. Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, ehtiyac yaranarsa, Silahlı Qüvvələrimizin sərəncamındakı digər silahlar da düşmənə qarşı tətbiq olunacaq. Həmin silahlardan istifadə ediləcəyi təqdirdə ermənilərin itkisi onların ağlına gələ bilməyəcəyi qədər, düşündüklərindən də çox olacaq. Onlar bunu anlamalıdırlar".



Nazirlik rəsmisi bəyan edib ki, əgər ermənilər gənclərini, erməni millətinin gələcəyini qorumaq istəyirlərsə, işğal altında saxladıqları Azərbaycan ərazilərini birdəfəlik tərk etməlidirlər.

V.Dərgahlı qeyd edib ki, bu gün cəbhədə süni şəkildə gərginlik yaradan da, dövlət sərhədində, qoşunların təmas xəttində işğal olunmuş ərazilərdən Azərbaycan kəndlərini, dinc əhalini atəşə tutan da Ermənistan ordusudur. Hər il onlarla dinc sakin erməni hərbçilərinin açdığı atəş nəticəsində yaralanır, həlak olur. Bu faktlar beynəlxalq təşkilatlara, o cümlədən ATƏT-ə də məlumdur.

"Əgər düşmən hesab edirsə ki, biz buna biganə qalacaq, cavab verməyəcəyik, çox yanılır. Azərbaycan Ordusu qarşı tərəfdə dinc əhaliyə maksimum şəkildə toxunmamağa çalışır. Hətta, xatırlatmaq yerinə düşər ki, bir neçə ay əvvəl ermənilərin işğal etdikləri Ağdərə ərazisindəki Talış və Madagis kəndlərinin sakinləri xarici KİV-ə müsahibələrində özləri də etiraf etmişdilər ki, Azərbaycan Ordusu istəsə bizi vura bilər. Amma bunu etmir. Sadə ermənilər Ermənistandakı cinayətkar hərbi rejimin uydurduğu yalanları bu açıqlamaları ilə ifşa etdilər", - deyə nazirliyin sözçüsü bildirib.

Ermənistan Müdafiə Nazirliyi mətbuat katibinin ötən gün yerli KİV-lərdə yayılan və guya Azərbaycan Silahlı Qüvvələrinin il ərzində cəbhədə 215 əsgər itirməsi barədə açıqlamasına da toxunan V.Dərgahlı bunu Artsrun Ovanisyanın "yuxusu" adlandıraraq deyib: "Ovanisyanın bu açıqlaması öz müdafiə nazirinin hərəkətləri qədər çox məsuliyyətsiz, heç bir əndazəyə sığmayan bəyanatdır. Onlar öz sayıqlamalarını mətbuat vasitəsi ilə ictimaiyyətə sırımaqda, itkilərini gizlətməkdə ustadırlar. Bizdə olan məlumata görə, Ermənistan tərəfi öz itkilərinin sayını gizlədir. İtkiləri o qədər çoxdur ki, onları açıqlamaqdan çəkinirlər. Odur ki, Azərbaycan tərəfinin itkiləri barədə şişirdilmiş, yalan, təxribat dolu xəbərlər yaymaqla erməni ictimaiyyətini, qismən də olsa, sakitləşdirmək istəyirlər.

Azərbaycan Müdafiə Nazirliyi cəbhədəki hər bir şəhid, yaralanan hər bir hərbçi barədə ictimaiyyətə mütəmadi informasiya verir. Şəhidimizin qanı isə artıqlaması ilə alınır. Azərbaycan ictimaiyyəti əmin olmalıdır ki, torpaqlarımız işğaldan azad olunanadək ordumuz düşmənə qarşı tədbirlərini davam etdirəcək. İşğal altında saxlanılan Azərbaycan torpaqlarından Ermənistana hər gün əsgər tabutları gedəcək".

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Düşmənin pilotsuz uçan aparatı məhv edilib

Dekabrın 25-də saat 11.45 radələrində Tərtər rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçan aparat aşkarlanaraq bölmələrimiz tərəfindən sərrast atəşlə dərhal məhv edilib

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***<u>25 dekabr 2015-ci il.</u>***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 115 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çaylı, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Mərzili, Qaraqaşlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 120 dəfə atəş zərbəsi endirib.

*Ön xətdən reportaj*

# Hər səngərimiz alınmaz qaladır

***Qərargaha yola düşürəm, amma düşüncələrim məni səngər ömrü keçirən Vətən oğullarının görüşünə tələsdirir. Elə hey onları düşünürəm. "Görəsən, yerləri soyuq deyil ki?.." Bəlkə də, yerli cavanlara belə soyuq-sazaq təsir etməz, axı belə şəraitə alışıblar. Amma səngər ömrü yaşayan gənc döyüşçülərimizin hərəsi bir rayondan, bir kənddən gəlib.***



Hərbi hissənin qərargahında zabit Vüqar Cəfərovla köhnənin dostları kimi görüşüb hal-əhval tuturuq. Onunla görüşlərim çox olub, döyüş yolu Azərbaycanın bir çox bölgələrindən keçib və deyərdim ki, bəlkə də ömrünün tən yarısını cəbhə xəttində keçirib. Hər dəfə söhbət edəndə deyirəm ki, ay Vüqar, bu illər sənə nə verib?

Tərəddüd etmədən deyir ki, çox şey qazanıb, illər uzunu səngərlərimizdə bir-birindən məğrur, vətənpərvər döyüşçülərlə tanışlıq mənəvi sərvəti olub. "Deyiblər ki, oğullar Vətən üçün doğulur, həqiqətən belədir, torpaq o zaman müqəddəsləşir ki, qoynunda bəslədiyi oğullar onun uğrunda can əsirgəməkdən belə çəkinmirlər", - deyir zabit dostum.

Budur, yolum dağlaradır, neçə illərdən bəri sinəsini yurdumuza sipər edən döyüşçülərimizin oylağına yollanıram. Cığırları da tanışdır, kəndi-kəsəyi də...

Hər dəfə bu rayona ezamiyyətə gələndə ağır müharibə illərini xatırlayıram. 1993-cü ilin bir bahar günü ilk dəfə gəlmişdim bu yerlərə. Doğrudur, Vətəni üçün, eli-obası üçün can əsirgəməyən nə qədər oğullar tanımışdım. Amma o illərin çətinliyi heç vaxt yaddaşımdan silinmir.

Bir səngərdə əsgərin naharına qonaq idim, süfrəyə qoyulan qapqara çörəyi heç balta da kəsə biməzdi. Elə ətrafda yaşayan yerli əhali də çox çətinliklərlə üzləşirdi.

Ümummilli liderimizin hakimiyyətə qayıdışından sonra bütün problemlər tədricən həllini tapdığı kimi, ordu bölmələrimizdə də ab-hava dəyişdi. Orduda nizam-intizam, qayda-qanun yarandı, əsgərin taleyi peşəkar komandirə tapşırıldı.

## "Vətənimin sadiq övladı olmağımdan qürurluyam"

Döyüş növbəsindən yenicə qayıdan bir qrup əsgərlə sobanın ətrafında söhbətləşirəm, əlləri silah tutan Vətən övladlarını bir-bir tanımağa çalışıram. Birinci həmsöhbətim Ağsu rayonundan hərbi xidmətə gəlmiş əsgər Sahib Ağayevdir. Deyir ki, əsgərliyinin 14-cü ayındadır, döyüş vəzifəsi isə atıcıdır.

- Sahib, gəl səmimi danışaq, yəqin ilk döyüş növbəsi apardığı günlərdə çətinliklərin az olmayıb...

- Doğru sözümdür, elə bir çətinliyim olmayıb. Çünki ilk gündən cəfakeş komandirimin, səmimi əsgər dostlarımın əhatəsindəyəm. Həm də hiss edəndə ki, Vətənə övlad borcunu verməyə gəlmisən, onda mətinləşirsən, qorxu nə olduğunu bilmirsən. Gərək səni boya-başa çatdıran yurda ürəkdən bağlı olasan, hər qarışını sevəsən.

- Sahibin fikri ilə mən də şərikəm, - deyə başqa bir döyüşçü Alı Əliyev Ağcabədi rayonundan orduya çağırıldığını, artıq hərbi xidmətinin son günlərini başa vurmaqda olduğunu bildirir.

- Bəs bu aylar sənə nə verib?

- Çox şey, - deyir əsgər. - İlk növbədə Vətənin müqəddəsliyini dərindən hiss etmişəm. Gecənin bir vaxtı, soyuq-şaxtalı havada əlim silahın tətiyində torpaqlarımızı göz bəbəyim kimi qoruyan anda Vətənimin sadiq övladı olmağımdan qürur duymuşam.



Əsgərlərlə söhbət etdiyim ünvan döyüş manqasının dayaq məntəqəsidir. Xoşdur ki, düşmənlə təmas xəttində əsgərin sosial şəraiti müasir səviyyədə qurulub. Əziz oxucu, öz müdafiəçisinə önəm verən Azərbaycan dövləti, şəxsən Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğu siyasətini daim diqqət mərkəzində saxladığı üçün əsgər və zabitlərimizin sosial qayğıları yüksək səviyyədə həll edilib. İndi səngərdə döyüş növbəsi keçirən əsgərlərin ərzaq, geyim sarıdan heç bir problemi yoxdur.

Müdafiə Nazirliyinin rəhbərliyi də daim əsgərin yanındadır, bu yaxınlarda Mətbuat Xidmətinin yayımladığı məlumatlarda da deyildiyi kimi, nazir başda olmaqla, bütün rəhbər heyət ardıcıl olaraq cəbhə xəttinə gedir və döyüşçülərin vəziyyətilə yerindəcə maraqlanır.



## "Öz əsgərinə güvənməyən komandir döyüşdə uğur qazana bilməz"

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elnur Musayevi hərbi kollektivdə Milli Qəhrəmanımız Mübariz İbrahimovun həmyerlisi kimi tanıyırlar. Biləsuvar rayonundan olan manqa komandiri 2003-cü ildə Vətənə əsgər borcunu şərəflə başa vurduğunu deyir. Vətənpərvər gəncimiz artıq səkkiz ildir ki, cəbhə xəttində müddətdən artıq hərbi xidmətdədir.

- Elnur, əfsanəvi döyüşçü olan Mübariz İbrahimov kimi Vətənimiz Azərbaycana bağlısanmı?

- Mübarizgilin kəndində iki dəfə olmuşam. Onu tək bir kənd, rayon miqyasında deyil, bütün Türk dünyasında tanıyırlar. Hərdən hərbçi dostlarım mənə Mübariz kimi fədakar olmaq istərdinmi, - sualını verəndə tərəddüd etmədən "əlbəttə" deyirəm. Bəlkə də, elə bu hiss məni yenidən orduya bağladı. Mənə elə gəlir ki, orduya səni gətirib çıxaran başlıca amil Vətənə bağlılığın, doğulduğun torpağa sədaqətin olmalıdır.

- Cəbhə xəttində komandir olmaq üçün hansı xüsusiyyətlərə malik olmaq vacibdir?

- Ümumiyyətlə, ordunu qəhrəmanlıq məktəbi hesab edənlər yanılmırlar. Xüsusən də cəbhə xəttində xidmət etmək və hər qarış torpağımızın keşiyində dayanmaq adamdan mənəvi dəyərlərə sədaqətli olmağı tələb edir. Burada komandir olmaq üçün qat-qat məsuliyyətli olmalısan. Gərək tabeliyində olan hər bir döyüşçünün inam və etibarını qazanasan. Bu inamı qazana bilməyən, ümumiyyətlə, öz əsgərinə güvənməyən komandir heç vaxt döyüşdə uğur qazana bilməz.

Hər dəfə ön xətdə ezamiyyətdə olanda tək bir reportaj hazırlamaqla vəzifə borcumu bitmiş hesab etmirəm. Axı, bu yerlər bir-birindən mətin, iradəli və ən başlıcası, ürəklərində Vətən sevgisi kükrəyən oğulların ünvanıdır. Belə oğulları bütün Azərbaycana tanıtmaq isə bizim vətəndaşlıq borcumuzdur.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# "Doğulduğum torpaq üçün can əsirgəmərəm"

***Səngərlə bir qədər gedəndən sonra ortaboylu bir döyüşçü bizi qarşılayır. Hələ keşikçi postuna çatmamış atəş sektorunun yanında üzü səngərə baxan bir sal daşla rastlaşırsan. Həmin daş səngər qazılarkən yerin altından çıxarılıb. Səngərin sipəri irili-xırdalı daşlarla dolu olsa da, bu qaya parçası uzaqdan diqqəti cəlb edirdi. Üzərinə çəhrayı boya ilə yazılmış "Növbəti səngərimiz Qarabağda olacaq!" sözləri diqqətimi çəkdi. Bu, Azərbaycan əsgərinin Vətənə təmənnasız sevgisindən yaranan bir hissdir, duyğudur.***

Səngərdən Vətən daha əzəmətli görünür. Bu əzəməti qorumaq hər birimizin müqəddəs borcu, amalıdır. Yurdun qədrini hamıdan çox əldə silah, gecə-gündüz demədən, yayın istisində, qışın sazağında qoruyan oğullar bilir. Həmin oğulların bir neçəsi ilə görüşüb təəssüratlarını öyrənirəm.



- Əsgər Nicat Aşırov, - deyə bir döyüşçü özünü təqdim edir. Deyir ki, Vətən onun üçün müqəddəs, əvəzsiz bir varlıqdı. Vətəni qorumaq onun başlıca amalıdı. "Doğulduğum bu torpaq üçün can əsirgəmərəm", - deyir əsgər.

Ağstafa rayonundan olan bu post keşikçisi ilə söhbətdən öyrənirəm ki, 90-cı illərin o qanlı-qadalı vaxtında atası Rizvan müharibədə iştirak edib, işğalçılara qarşı döyüşüb. Hələ erkən yaşlarından müharibə ilə bağlı təəssürata malik olan gənc döyüşçü deyir:

- Hərbi xidmətə gəldiyim ilk gündən qarşıma məqsəd qoydum ki, komandirlərin əmr və tapşırıqlarını məsuliyyətlə yerinə yetirim. Hərbi bilikləri dərindən mənimsəyim, təlimlərdə döyüş vərdişlərinə mükəmməl yiyələnim. Bir ilə yaxındır hərbi xidmətdəyəm. Həmişə çalışmışam ki, komandirlərimin etimadını doğrulda bilim. Səngərdə Vətənin keşiyində dayanmaqdan qürur duyuram. Hər zaman Ali Baş Komandanın döyüş əmrini gözləyirəm. Tam əminliklə deyirəm ki, erməni işğalı altında olan torpaqlarımızı azad etmək üçün mənən döyüşə hazıram.

Düşməndən çox da uzaq olmayan bir məsafədə ayıq-sayıq xidmət etməyin özü onu göstərir ki, Nicat sözünün ağası olan döyüşçüdü. Baş leytenant Rüfət Quliyev tabeliyindəki bu əsgərin xidmətindən razılığını bildirir. - Həm nizam-intizamlı olmaqla, həm də döyüş vərdişlərini yetərincə mənimsəməklə istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

Bəli, səngərdə görüşdüyüm hər bir əsgərin başlıca məqsədi erməni tapdağı altında olan yurd yerlərimizi azad etməkdir. Onlar bunun üçün daim hazır olduqlarını bildirdilər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Gizir əsgər atasıdır

Şamil Qalayçıyev 1992-1994-cü illərdə həqiqi hərbi xidmətdə olub. Ağdərədə, Kəlbəcərdə, Füzulidə gedən döyüşlərdə iştirak edib və onlarla yaşayış məntəqəsinin düşməndən azad edilməsində onun da xidməti olub. Əsgər kimi qətiyyətli olub, şəraiti düzgün qiymətləndirmə bacarığı ilə fərqlənib. Bəlkə də bunların təsiriydi ki, hərbçi ömrü yaşamağı qərara almışdı. Komandanlıq onun bu qərarına razılığını bildirib və gizir rütbəsi verilməklə batareyada vəzifəyə təyin edilib.



Təhsil, elmi biliklər həmişə zəruri olub. Şamil Qalayçıyev hərbi biliyini artırmaq istəyirdi. Bu haqda müraciəti nəticəsiz qalmadı. Təhsil alması üçün onu qardaş Türkiyəyə göndərdilər.

Təhsilini başa çatdırdıqdan sonra "N" hərbi hissəsində təmir taqımının komandiri vəzifəsinə təyin olunub. Az sonra ona baş gizir rütbəsi verilib...

Bunlar baş gizir Şamil Qalayçıyev haqqında qısa məlumatlardır. Ən gözəl, ən dəyərli məlumatları özü nümunəvi hərbi xidməti ilə yazmaqdadır. Onun komandiri olduğu taqım mühüm vəzifələri yerinə yetirir: döyüş maşınlarının, silahların təmiri və s. hərbi hissənin döyüş hazırlığının təmin edilməsində mühüm əhəmiyyətə malikdir.

Şamil Qalayçıyev digər hərbçilərimiz kimi, Silahlı Qüvvələrimizin döyüş və mənəvi-psixoloji hazırlığından qürurlanır. O da fəxr edir ki, ordumuz Cənubi Qafqazda ən güclü ordudur. O da torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə hazırdır.

Söhbət zamanı baş gizir Şamil Qalayçıyev dedi:

- Hərə öz ömrünü yaşayır. Hərbçi həm öz ömrünü yaşayır, həm də Vətənin taleyini. Vətənin taleyi hərbçilərə tapşırılıb. Biz də bu sıradayıq. Deməli, torpaqlarımızın işğaldan azad edilməsi bilavasitə bizim borcumuzdur. Əsgərlərimiz məhz bu amalla xidmət edir. Hər biri o günün həsrətindədir.

Baş gizirin dünyaduyumu genişdir. O, əsl vətənpərvər hərbçilərdəndir. Təkzibedilməz bir həqiqətdir ki, vətənpərvər zabitin taleyində xidmət edən əsgərlər də Vətəni varlığıyla sevirlər.

Şamil həm də əsgər atasıdı. Oğlu Şahin hərbi xidmətdədir. Belə atadan öyüdlər eşidən oğulun nümunəvi əsgər olduğuna şübhə yoxdur.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

## Səfir Daniel Kristian Çiobanu:

# Azərbaycan-NATO əməkdaşlığı inkişaf edir

Bakıda Rumıniya səfirliyi tərəfindən icra edilən NATO-nun Azərbaycandakı əlaqələndirici səfirliyində qəbul keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə "Günəşli" yatağının 10 saylı stasionar dərin dəniz özülündə baş vermiş qəza nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Rumıniyanın Azərbaycandakı səfiri Daniel Kristian Çiobanu ölkələrimiz arasındakı əlaqələrdən danışıb. Səfir Azərbaycan-Rumıniya münasibətlərinin son illər sürətlə inkişaf etdiyini vurğulayıb. O, həmçinin, NATO-nun Azərbaycandakı əlaqələndirici səfirliyi qismində Rumıniyanın fəaliyyətindən söhbət açıb. Qeyd edib ki, 2016-cı il ərzində Rumıniyanın diplomatik missiyası NATO-Azərbaycan əməkdaşlığını daha geniş işıqlandıran ictimai tədbirlər keçirməkdə davam edəcək. Diplomat NATO ilə Azərbaycan arasında əlaqələrin strateji əhəmiyyətə malik olduğunu söyləyib.

NATO-nun Cənubi Qafqaz üzrə əlaqələndirici zabiti Uilyam Lahiu Azərbaycan və Alyans arasında münasibətlərin dərinləşdiyini bildirib. O, NATO-nun gələcəkdə də Azərbaycanla əməkdaşlığı davam etdirəcəyini vurğulayıb.

# Xəbərlər:

## hadisələr, faktlar

### Böyük Britaniyada Quranın 1370 yaşı olan ilk nüsxəsi tapılıb



Bu yaxınlarda Birləşmiş Krallıqda tapılan Quran kitabının parçaları Birmingem Universitetində mütəxəssislər tərəfindən araşdırılır.

Alimlərin fikrincə, həmin parçalar müqəddəs Quran kitabının ilk nüsxəsidir. Radiokarbon tarixləşdirmə üsulu ilə müəyyən olunub ki, bu əlyazmanın azı 1370 yaşı var və Məhəmməd Peyğəmbərin (s.ə.v.) vəfatından təxminən on üç il sonra yazılıb.

İslam Araşdırmaları Fondunun direktoru Camal Huvareyb müqəddəs kitabın parçalarının İslam dünyası üçün əhəmiyyətli tapıntı olduğunu bildirib. Onun sözlərinə görə, tapılan Quran kitabı Peyğəmbər ailəsindən başqa, müsəlmanlığı qəbul edən ilk şəxsə, yəni Əbu Bəkrə aiddir. Birmingem Universitetinin alimi Devid Tomas bu fikirlə tam razılaşmasa da, tapıntının araşdırmalar üçün mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

### Çində 67 saat dağıntılar altında qalan adam xilas edilib



Çinin Şencen şəhərində baş vermiş torpaq sürüşməsi nəticəsində dağıntılar altında qalan 76 nəfərdən biri sağ xilas edilib.

Xilasedicilər fabrik binasının dağıntıları altında sağ insan olması ehtimalı əsasında axtarışa başlayıb, 19 yaşlı ofis işçisi Tian Cemini xilas ediblər. Onun yanından isə daha bir nəfərin cəsədi tapılıb. Dağıntı altında topuğu əzilən Tian Cemin xəstəxanaya yerləşdirilib. Həkimlər onun vəziyyətinin sabit olduğunu bildirirlər.

Xatırladaq ki, dekabrın 20-də baş vermiş torpaq sürüşməsi nəticəsində Şencen şəhərinin nisbətən yüksək olan hissəsində yerləşən sənaye parkının ərazisində 33 bina, o cümlədən 14 fabrik, 2 ofis və 1 yeməkxana binası, 3 yataqxana, 13 kiçik ölçülü tikili uçub. Hadisə zamanı ilkin olaraq 91 nəfərin dağıntılar altında qaldığı güman olunurdu, lakin sonradan aparılmış dəqiqləşdirmələr zamanı 76 nəfərin itkin düşdüyü bildirilib. Hazırda 74 nəfərin axtarışları davam etdirilir.

### İsveç polisi ölkədə təhlükəsizliyi təmin etmək üçün hərbçiləri cəlb etmək niyyətindədir



İsveç polisi ölkəyə gələn çoxsaylı qaçqınlarla əlaqədar təhlükəsizliyi təmin etmək üçün krallıqda hərbçilərin gücündən istifadə olunması haqqında ərizə ilə müraciət edib.

Bu ilin natamam 12 ayı ərzində İsveçə 180 mindən çox qaçqın gəlib. Daha əvvəl Krallığın miqrasiya idarəsi elan edib ki, 2015-2016-ci illərdə 9,7 milyon əhalisi olan ölkəyə 340 mindən çox qaçqının gələcəyi gözlənilir. Bu, cəmiyyətdə narazılığın artmasına səbəb olur. İsveçdə qaçqınların müvəqqəti yaşaması üçün ayrılan düşərgələrin yandırılması halları da artıb. Təkcə son aylar ərzində 30-dan çox bu cür hadisə qeydə alınıb. Belə vəziyyətdə hökumət təhlükəsizlik məsələlərinə daha çox diqqət yetirməyi qərara alıb, amma krallıqda asayiş keşikçilərinin çatışmazlığı hiss olunur.

Yaranmış vəziyyətdə İsveç Baş Polis İdarəsinin rəisi Dan Eliasson hazırda polis tərəfindən mühafizə olunan bəzi obyektlərin qorunmasına ordunu cəlb etmək təklifini irəli sürüb.

Qeyd edək ki, İsveçin asayiş keşikçiləri və hərbi rəhbərliyi arasında ən yüksək səviyyədə danışıqlar artıq başlanıb. İsveç Baş Polis İdarəsinin rəisi Dan Eliasson vurğulayıb ki, çox güman, bu danışıqların nəticəsi müsbət olacaq.

### Avropada sığınacaq axtaran şəxslərin sayı bir milyonu keçib



Bu il Avropada sığınacaq axtaran şəxslərin sayı bir milyonu keçib.

Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı (IOM) məlumat yayıb. Məlumatda bildirilir ki, bu vaxtadək 816 min 752 miqrant Egey dənizi vasitəsi ilə Yunanıstana, 150 mindən çox miqrant isə Aralıq dənizini keçməklə İtaliyaya gedib. Quru yol vasitəsi ilə Türkiyədən Yunanıstana 4 min 256, Bolqarıstana isə 29 min 956 qaçqın keçib.

### Yunanıstan parlamenti Fələstin Dövlətinin tanınması ilə bağlı qətnamə qəbul edib



Yunanıstan parlamenti dekabrın 22-də ölkə hökumətini Fələstin Dövlətini tanımağa çağıran qətnamə qəbul edib.

Parlamentin iclasında Yunanıstanda səfərdə olan Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas da iştirak edib. Yunanıstan parlamentinin sədr müavini Tassos Kourakis qətnamənin Fələstin Dövlətinin tanımasına yönəlmiş birinci addım olduğunu vurğulayıb.

Prezident Mahmud Abbas dəstəyə görə yunanıstanlı deputatlara minnətdarlığını bildirib.

### Gürcüstanın Baş naziri İrakli Qaribaşvili istefa verib



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili tutduğu vəzifədən istefa verib. O, bunu dekabrın 23-də keçirdiyi brifinqdə bəyan edib.

İ.Qaribaşvili istefasının səbəbini və bundan sonra hansı vəzifədə çalışacağını açıqlamayıb. Bildirib ki, o, bundan sonra da Gürcüstan dövlətçiliyinə və xalqına xidmət edəcək.

Ölkənin siyasi ekspertlərinin fikrincə, İ.Qaribaşvilinin istefası 2016-cı ildə Gürcüstanda keçiriləcək parlament seçkiləri ilə bağlıdır. Onun "Gürcü arzusu" Partiyasının seçki qərargahına rəhbərlik edəcəyi bildirilir.

### Rusiya İrana təyyarə satacaq



Bu barədə Rusiyanın sənaye və ticarət naziri Denis Manturovun İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Məhəmməd Rza Nemətzadə ilə görüşündə bildirilib. Nazirlikdən verilən açıqlamaya görə, Rusiya İranın "Kish Air" hava yolu şirkətinə "Tu-204SM" tipli 10 və ya 15 sərnişin təyyarəsini satmağı planlaşdırır.

Qeyd edək ki, Rusiyanın İrana təyyarə satışı daha əvvəl də gündəmə gəlmişdi, lakin ABŞ-ın İrana qarşı tətbiq etdiyi sanksiyalar səbəbindən satış təxirə salınmışdı.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan gəncliyinə örnək

***Belə bir məşhur deyim var ki, hər şeydən öncə Vətəndir. Ona görə Vətənə xidmətdən şərəfli peşə təsəvvür etmək çətindir. Bu mənada ömrünü bu müqəddəs peşəyə həsr etmiş müstəqil Azərbaycanın ilk ordu generallarından biri Dadaş Rzayev xoşbəxt insandır.***



Azərbaycan Respublikasının ictimai həyatındakı səmərəli fəaliyyətinə və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə Dadaş Qərib oğlu Rzayev Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2015-ci il tarixli sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilib.

1935-ci ildə Goranboy rayonunun Dəliməmmədli qəsəbəsində anadan olmuş Dadaş Rzayev Sovet ordusunda nümunəvi xidmətinə görə ali hərbi təhsil almaq məqsədilə Hərbi Hava Desantçıları Məktəbinə göndərilib. Bununla ömrünü hərbi xidmətə birdəfəlik bağlamış həmyerlimiz harada xidmət etməsindən asılı olmayaraq, həmişə azərbaycanlı adını uca tutub, xidmətində öz silahdaşlarına nümunə olmağı bacarıb.

Hələ baş leytenant olarkən silahdaşları arasında "Qızıl ulduz" ordeni alan ilk azərbaycanlı Sovet ordusunun sayılıb seçilən qoşun növündə - Hava-Desant Qoşunlarında 5 min nəfər şəxsi heyəti, 120-yə yaxın vertolyotu olan əlahiddə qırıcı hərbi hava desantçıları briqadasının komandiri kimi nüfuzlu hərbi vəzifədə xidmət edib. Nəhayət, Azərbaycan müstəqillik qazandıqdan sonra o, peşəkar hərbçi kimi ölkəmizdə ordu quruculuğuna layiqli töhfəsini verib.

Qarabağ müharibəsinin genişləndiyi ilk dövrlərdə o, Qazax, Tovuz və Gədəbəy rayonlarının strateji yüksəkliklərində mühəndis-istehkam qurğularının yaradılması üçün bilik və təcrübəsini əsirgəməyib.

General Dadaş Rzayevin ən böyük xidmətlərindən biri strateji məkanda yerləşən və Azərbaycanın geniş ərazisini təhlükədə saxlayan erməni quldur yuvası Başkəndin ermənilərdən azad edilməsilə bağlı məxfi əməliyyatın hazırlanaraq uğurla həyata keçirilməsidir. 1992-ci il avqustun 8-də həyata keçirilən döyüş əməliyyatları nəticəsində Başkənd ermənilərdən alınıb.

Ümumiyyətlə, ordumuzda hansı vəzifəni daşımasından asılı olmayaraq peşəkar desantçı hər zaman zabit şərəfini uca tutub, hərbi mundiri şərəflə daşıyıb. Azərbaycan Könüllü Hərbi Vətənpərvərlik Texniki İdman Cəmiyyətinin Balakən rayonundakı bazasında məşhur desantçı hətta 74 yaşında təxminən 1000-1200 metr yüksəklikdən paraşütlə tullanmaq bacarığını nümayiş etdirib.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri kimi mühüm bir vəzifədə çalışan general Azərbaycan Ordusunun gücü və döyüş qüdrətinin inkişafı, gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması üçün bu gün də öz köməyini əsirgəmir.

**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*Həyat məktəbi*

# "Hərbi xidmət çox mühüm keyfiyyətlər aşılayıb"

***İnsan ömrünün ən gözəl çağlarından biri də yeniyetməlik və gənclik illəridir. Ömrün bahar çağları da deyilir bu illərə. Məhz bu dövrdə müstəqil həyata ilk qədəmlərimizi atırıq. Bu illərdə hər kəsi fərqli həyat yolu gözləyir. Kimi təhsilini davam etdirir, kimi özünə peşə seçir, hərbçi, həkim, mühəndis, müəllim, neftçi, bənna və s. peşələrə yiyələnir.***

***Bu fərqli arzularla yaşayan gənc oğlanların ortaq bir arzusu olur: Azərbaycan əsgəri olmaq!***

Üzərində boy atdıqları, suyu və çörəyilə qidalandıqları, havası ilə nəfəs aldıqları Vətən torpaqlarını qorumaq üçün hərbi xidmətdə olmaq gənclərimizin əsas vəzifəsidir. Bu şərəfli xidmət dövrü də məhz gəncliyimizin bahar çağlarına təsadüf edir.

Bəs hərbi xidmət gənclərə nə verir, onlara hansı keyfiyyətləri qazandırır? Bu suallara cavab tapmaq məqsədi ilə Hərbi Hava Qüvvələrinə məxsus "N" hərbi hissəsində tərxis olunmağa hazırlaşan əsgərlərlə söhbətləşirəm.

Hərbi hissəyə gəlişim əsgərlərin asudə vaxtına təsadüf elədi. Əsgər yataqxanasına daxil olanda növbətçinin bizi qarşılaması, ətrafdakı səliqə-sahman, təmizlik burada nizam-intizamın yüksək səviyyədə olmasının təcəssümüdür.

Şərəf lövhəsini, Milli Qəhrəman Mübariz İbrahimovun guşəsini gördükcə öz xidmət illərim yadıma düşdü. Yeni təmir olunmuş istirahət otağında asudə vaxtlarını səmərəli keçirən, "Azərbaycan Ordusu" qəzetini, "Hərbi bilik" jurnalını oxuyan və stolüstü oyunlarla məşğul olan əsgərlərlə salamlaşdıq.

Tərxis olunmağa hazırlaşan əsgərlərdən birinə - Rəvan Misirova yaxınlaşdıq. "Azərbaycan Ordusu" qəzetini maraqla oxuyan əsgər bizim məhz bu qəzetin müxbirləri olduğumuzu biləndə çox sevindi. Kürdəmir rayonundan hərbi xidmətə çağırılan Rəvan sözə başladı:

- Mühafizə bölüyünün atıcı əsgəriyəm. Vəzifəmiz hərbi hissənin mühüm obyektlərinin mühafizəsini təşkil etməkdir. 18 aydır ki, xidmətdəyəm. Bu aylar mənə çox mühüm keyfiyyətlər aşılayıb. Ömrümün bahar çağını hərbi xidmətdə keçirməkdən qürurluyam. Müstəqil həyatın astanasında hərbi xidmət keçmək bizi həyata daha da möhkəm hazırlayır. Valideynlərimizin qədrini bilməyi, yaxşını pisdən ayırmağı, çətin vəziyyətdən çıxmağı, qorxmazlığı, cəsurluğu məhz ordu mühitində öyrənirik. Ən əsası isə Vətənə, millətə olan sevgimiz artır. Həm bacarıqlı döyüşçü, həm də cəmiyyətimiz üçün layiqli şəxsiyyət kimi formalaşırıq.

Mənim uşaqlıq illərim də hərbçi ailəsində keçib. Atam, ordu sıralarında gizir kimi xidmət edib. Elə o illərdən məndə orduya böyük rəğbət olub. Mənim də arzum hərbçi olmaq idi. Lakin bu arzuma çata bilmədim. Hərbi xidmət ürəyimdəki bu arzunu yenidən alovlandırdı. Əsgəri xidmətimi başa vurduqdan sonra ordu sıralarında müddətdən artıq həqiqi hərbi qulluqçu kimi xidmət etmək istəyirəm.



Dama oynayan əsgərlərə yaxınlaşırıq. Maraqlı oyun gedir. Qalib gələni təbrik edib, onlarla həmsöhbət oluruq. Qalib gələn əsgər Elvin Qasımovun idmana olan marağı, həvəsi açıq-aşkar hiss olunurdu. İdmanın güləş növü ilə məşğul olduğunu öyrənirik. Hərbi Hava Qüvvələrinin hərbi hissələri arasında keçirilən yarışların iki dəfə qalibi olub. Mühafizə bölüyündə baş atıcı vəzifəsində xidmət edən Elvin hərbi hissə komandiri tərəfindən bir neçə dəfə fəxri fərmanla təltif olunub. Hərbi xidmətini başa vuracaq əsgər deyir:

- 18 aylıq xidmətim həyat təcrübəmi artırıb, mənə yaxşı dostlar qazandırıb. Əvvəlki illərdə də çox dostlarımız olub. Lakin hərbi xidmətdə qazanılan dostluğun dəyəri böyük olur. Bu gün çiyin-çiyinə Vətənin keşiyində dayanırsansa, həyatda da bir-birinə arxa-dayaq olursan. Hərbi xidmət mənə döyüş vərdişlərini, silahla davranma qaydalarını, nizam-intizamı öyrədib. Həmçinin, fiziki hazırlığım da artıb. İdman nailiyyətlərimə görə hərbi hissə komandiri tərəfindən fəxri fərmanla təltif olunmağım çox qürurvericidi. Komandirimin əlimi sıxıb məni təbrik eləməsi həyatımın ən həyəcanlı, sevincli anı kimi yaddaşıma həkk olunub.

Xidmətinin son günlərini keçirən əsgər Cavid Həşimov isə hərbi xidmətə Göyçay rayonundan çağırılıb. Mühafizə bölüyünün əsgəri fikirlərini bizimlə bölüşür:

- Məktəb illərində vətənpərvərlik mövzusunda bir çox şeirlər, hekayələr, bayatılar eşitmişəm. Filmlərə baxmışam. Lakin vətənpərvərliyi tam olaraq əsgərliyim dövründə başa düşmüşəm. Hərbi xidmətdə hər səhərimiz Azərbaycanın Dövlət himni ilə açılır. "Səndən ötrü can verməyə cümlə hazırız, Səndən ötrü qan tökməyə cümlə qadiriz!" Yüzlərlə əsgərin dilində deyilən bu misralar adamın qəlbini coşdurur. Mən də əsgər kimi himni oxuyanların sırasında olmaqdan qürur duyuram. Himnimizin hər misrası mənə vətənpərvərlik hissini, Vətən sevgisini aşılayır. Hərbi xidmət bizə valideynlərimiz kimi qayğı göstərən komandir sevgisi qazandırıb. Nə yaxşı ki, gəncliyimizin gözəl çağlarını hərbi xidmətə həsr etmişik. Bir daha deyərdim ki, hərbi xidmət gəncliyimizin ən gözəl çağlarıdır.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Həmvətənimiz Ukraynada bürünc medal qazanıb



Xarkovda "ADCC Submission Fighting V Ukrainian National Championship-2015" çempionatı start götürüb. Poltava İqtisadiyyat və Ticarət Universitetinin 4-cü kurs tələbəsi, ciu-citsu üzrə qırmızı kəmərin və qrepplinq üzrə Dünya Kubokunun sahibi, azərbaycanlı Əhməd Qurbanlı 3-cü yer uğrunda mübarizədə erməni David Stepanyana qalib gəlib.

Qeyd edək ki, idmançımızın medalı Azərbaycanın ADCC Çempionatlar Liqasında ilk mükafatıdır.

## Şəhriyar Məmmədyarov "Qatar Masters Open 2015" turnirin liderlərindən yarım xal geri qalır



Dohada nüfuzlu "Qatar Masters Open 2015" açıq şahmat turniri davam edir. Turnirə 141 şahmatçı, o cümlədən 89 qrossmeyster qatılıb. Azərbaycanı qrossmeyster Şəhriyar Məmmədyarov təmsil edir. Dörd turdan sonra hərəyə 3,5 xal toplayan Maqnus Karlsen (Norveç), Aniş Giri (Hollandiya), Li Çao (Çin), Maksim Matlakov (Rusiya) və Uesli So (ABŞ) irəlidədirlər. 18 şahmatçı, o cümlədən Şəhriyar Məmmədyarov yarım xal geri qalırlar. Beşinci turun püşkatmasının nəticələrinə görə, Şəhriyar Məmmədyarov ağ fiqurlarla Rusiya qrossmeysteri Denis Xismatulinlə oynayacaq.

Xatırladaq ki, Şəhriyar birinci turda ikiqat Avropa çempionu Natalya Jukovaya (Ukrayna) qalib gəlib, ikinci turda Sinqapur şahmatçısı Jonq Janqla heç-heçə oynayıb, üçüncü turda amerikalı Aleksandrdan güclü olub, dördüncü turda Danil Dubovla sülh bağlayıb. Turnirin 130 min ABŞ dolları məbləğində mükafat fondu uğrunda 32 ölkənin təmsilçiləri mübarizə aparırlar. "Qatar Masters Open 2015" İsveçrə sistemi üzrə 9 turda keçirilir.

Turnirin qalibləri dekabrın 30-da müəyyən olunacaq.

## "Qarabağ"ın Antalyadakı bütün rəqibləri müəyyənləşib



Topaz Premyer Liqasının qış fasiləsinə lider kimi yollanan Ağdamın "Qarabağ" futbol komandası 2016-cı ilin hazırlığına Antalyada başlayacaq.

"Qarabağ" komandası yanvarın 5-də Bakıda toplanacaq və təlim-məşq toplanışı üçün Türkiyəyə yollanacaq. Yanvarın 24-dək Antalyanın Belek bölgəsində hazırlıq keçəcək "Qarabağ" 4 yoxlama oyunu keçirəcək. "Qarabağ"ın yoxlama oyunlarındakı rəqibləri müəyyənləşib. Yanvarın 16-da Ağdam təmsilçisi İranın "Traktorsazi" (Təbriz), dörd gün sonra "Diosgjor" (Macarıstan), yanvarın 23-də Avstriyanın "Admira Vacker" və Polşanın "Jagelloniya" komandaları ilə qarşılaşacaq.

## Taekvondo üzrə respublika birinciliyinin üçüncü gününün nəticələri məlum olub



"Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən gənclər arasında taekvondo üzrə respublika birinciliyinin üçüncü gününün qalibləri məlum olub.

Azərbaycan Taekvondo Federasiyasının (ATF), Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi yarışda oğlanların mübarizəsində Əli İsazadə (51 kq), Qasım Maqomedov (55 kq) və Orxan Tağızadə (78 kq), qızların mübarizəsində isə Şəms İsayeva (52 kq), Sevil Zamanova (63 kq) və Jalə Əsədli (68 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qalib idmançılar diplom və medallarla təltif ediliblər.

Birincilikdə paytaxtda və bölgələrdə fəaliyyət göstərən komandaların idmançıları yarışıblar.

## Cüdo üzrə yeni Azərbaycan çempionları müəyyənləşib



İki gün davam edən cüdo üzrə kişilər və qadınlar arasında Azərbaycan çempionatına yekun vurulub.

Bakı İdman Sarayında keçirilmiş turnirdə paytaxt Bakı, eləcə də respublikamızın 23 şəhər və rayonunu təmsil edən 341 cüdoçu mübarizə aparıb. Yarışın ikinci günündə böyüklər arasında qaliblər müəyyənləşib. Heydərov Hidayət (73 kq), Elvin Əhmədli (81 kq), Rüstəm Alimli (90 kq), Məmmədov Elxan (-100 kq), Uşangi Kokuauri (+100 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. İdmançılar 41 idman klubu və cəmiyyətini təmsil ediblər. Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışların sonunda 14 cüdoçu qızıl, 13 gümüş və 23 atlet bürünc medal qazanıblar. Fəxri kürsüyə qalxan cüdoçulara medallar, Azərbaycan Cüdo Federasiyasının fəxri fərmanları və pul mükafatları təqdim olunub.

**AZƏRTAC-ın materialları əsasında**

Mehdiyev Əlisafa Pəsərək oğluna 2002-ci ildə verilmiş ehtiyatda olan zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əsgər Əsədov Qismət Füzuli oğluna 2014-cü ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

# Xarici hərbi xronika

## ABŞ-ın ən iri gəmisi dənizə çıxıb

USS növlü Amerikanın ən iri və yeni Zumvalt gəmisi ilk dəfə sınaqdan keçmək üçün Atlantik okeanına çıxıb. Amerikanın Hərbi Dəniz Qüvvələrinə məxsus olan çoxməqsədli Zumvalt esmini Stelz texnologiyası əsasında hazırlanıb və düşmən aviasiyasına qarşı mübarizə aparmaq, dənizdən qoşunlara dayaq durmaq, sahil və yerüstü hədəflərə zərbələr endirmək üçün nəzərdə tutulub. Hərbi Dəniz Qüvvələri üçün quraşdırılan ən iri gəmilərdən biridir. Onun gövdəsinin bir hissəsi kompozit materialdan hazırlanıb. Gəminin əsas silahlanması MK-57 VLS vertikal buraxıcı sistemdən ibarətdir. Yerüstü hədəfləri məhv etmək üçün Tomaqavk BĞM-109 raketindən, ESSM RİM-162 raketindən, iki 155 mm-li "Advansed Gun System" gəmi topundan istifadə ediləcək. İki ədəd 57 mm-li zenit artilleriya qurğusu isə suda olan kiçik obyektləri və gəmiəleyhinə raketləri məhv etmək üçündür. Anqarda helikopter və bir neçə dron, komandos üçün iki qayıq yerləşdirilib. Gəminin heyəti 158 nəfərdən ibarətdir.

## "Admiral Naximov" kreyseri hipersəsli raketlə təmin olunacaq

Şimali Dvinskdə modernləşdirilməkdə olan "Admiral Naximov" raket kreyseri 2018-ci ilə qədər gəmi atış kompleksi ilə təchiz ediləcək, hansı ki, "Kalibr", "Oniks" və "Sirkon" hipersəsli gəmi əleyhinə raketlərindən istifadə ediləcək. Hazırda gəmi "Qranit" raketi ilə silahlanıb. "Sevmaş" müəssisəsi "Almaz-Antey" konserni ilə 2018-ci ilin sonunadək 10 ədəd buraxıcı qurğunun verilməsi haqqında razılaşma əldə edib. Razılaşmanın təqribi qiyməti 3 milyarda qədərdir. Verilən məlumata əsasən, raketlərin istifadəsinə qədər ZK-14, 9K, 3M55, 3K-22 raket kompleksləri də hazırlanacaq. Hazır nümunələrin 2016-cı ildə sınağı keçiriləcək.

## Yaponiyanın ehtiyat esminləri

Bir çox ölkələrdə sahil mühafizəsi silahlı qüvvələrin, xüsusən də dəniz donanmasının ehtiyat qüvvəsi sayılır. Yaponiyanın sahil mühafizəsi çoxlu sayda müxtəlif təyinatlı gəmilərdən və digər aparatlardan ibarətdir. Onların standart subasımı 6500 ton, tam çəkisi isə 9300 ton təşkil edir. Uzunluğu 150 metr, heyəti isə 140 nəfərdən ibarətdir. Daha sonra esminlər üçün geniş helikopter sahəsi və "Evrocopte" helikopteri üçün iki anqar da vardır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Həmkarımızın kitabı təqdim edildi



Məfkurə vasitəsi olan ədəbiyyat müharibə mövzusuna biganə qala bilməz. Fakt və hadisələr, tarixləşdirmə öz yerində, müharibədə yaranan əsərlərin aşıladığı fikirlər ordu-cəmiyyət münasibətləri baxımından daha kəsərli olur. Vahid Məhərrəmovun "Kəsilməyən atəş səsləri" kitabında (Bakı, "Qanun" nəşriyyatı, 2015) gördüyü, müşahidə elədiyi fakt və hadisələrin bədii əksi olan hekayələrin əksəriyyətində ağrılarımızın göynərtisi hiss edilir. Hekayələşdirilmiş mövzuların (təxəyyüllə vəhdətdə fakt və hadisələrin) kövrəkliyini də, ağrı-acılarını da milli-xəlqi heysiyyət müstəvisində oxuya-oxuya zamanında gördüklərimizi, eşitdiklərimizi, duyduqlarımızı yenidən yaşayırıq. Atəş səslərini hərə öz duyumu səviyyəsində eşidir. Bu səsləri həm də yazıçı fəhmiylə eşidən Vahid Məhərrəmov duyduqlarını (şahidi olduqları öz yerində) nəsrləşdirir, tarixləşdirir. Hər əsərdə heysiyyət (torpaqlarımız qorunmalıdı!) çırpınır, hər əsərdən təəssüf (torpaqlarımız işğal olunub...) baş qaldırır. Müşahidələr, fakt və hadisələr əsasında yazılan bu hekayələr dönməz bir həqiqətin təsdiqidi. Müharibə təkcə qan-qada, ölüm-itim deyil, müharibə həm də torpaqsevərliyin sınağıdı; "Əsgər kəməri", "İkinci atəş", "Yaralanmış ömür", "Kəsilməyən atəş səsləri" hekayələri təsdiqləyir ki, Vahid Məhərrəmov bu sınağa sinə gərənlərin yazıçısıdı...

Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda "Kəsilməyən atəş səs-ləri" kitabının təqdimatında da bu qəbil fikirlər səsləndi. Birliyin katibi yazıçı İlqar Fəhmi kitabın çağdaş ədəbiyyatımızda yerinin məhz mövzu baxımından müəyyənləşdirilməsinin vacibliyini diqqətə çatdırmaqla müharibənin yaddaşlara bədii əsərlər vasitəsilə köçürüldüyünü təqdir etdi.

Filologiya elmləri doktoru Vaqif Yusifli Vahid Məhərrəmovun yaradıcılığında ən başlıca məziyyət kimi əsərlərin həyatiliyini, həyati faktları, hadisələri ədəbiyyata gətirmə istəyini, əsərlərin məhz bu istəyin nəticəsi kimi maraqla oxunduğunu, obrazların da hadisələr, faktlar kimi həyatdan gəldiyini, əsərlərdə müharibənin bədii əksinin aydınlığıyla göründüyünü qeyd etdi.

"Azərbaycan" jurnalının baş redaktor müavini ədəbiyyatşünas Südabə Ağabalayeva müharibə dövründə yaranan ədəbiyyatın təsiredici amilini vurğulayaraq Vahid Məhərrəmovun hekayələrinin bu baxımdan oxunmasını, təhlil edilməsini, "Əsgər kəməri" kimi hekayələrin yeniyetmələrin, gənclərin kamilləşməsində bədii mənbə olacağını xüsusi vurğuladı.

Yazıçı Elçin Hüseynbəyli Vahid Məhərrəmovun zamanında "Ulduz" jurnalında nəşr edilən hekayələrinin işığını "Kəsilməyən atəş səsləri" kitabında da gördüyünü, bunun ədəbi uğur olduğunu qeyd etdi.

Yazıçı Zemfira Məhərrəmli jurnalist Vahid Məhərrəmovla hərbi mövzuda yazan yazıçı Vahid Məhərrəmovu eyniləşdirən bir məqamı xatırlatdı: vətəndaşlıq, səmimiyyət. "Vahidin əsərləri həm də həyatın özü olduğuna görə diqqəti çəkir".

Tarix elmləri doktoru Mehman Süleymanov Vahid Məhərrəmovun çağdaş nəsrimizə gətirmək istədiyi mövzulara müfəssəl, hərtərəfli bələd olduğunu, bu bələdliyin bədii nəticəsinin oxucu ehtiramı olacağına əminliyini diqqətə çatdırdı.

Tədqiqatçı-jurnalist Şəmistan Nəzirli Vahid Məhərrəmovun hərbi mövzuda yazdığı hekayələrinin mənəvi dəyərlərimizə sədaqət aşıladığını, bəşəri duyğulara söykəndiyini, həm də müharibənin tarixi olduğunu qeyd etdi.

Tərcüməçi, ehtiyatda olan mayor Həmzəli İlyas kitabın xronika deyil, xronikanın tarixi kimi qəbul ediləsi bədii nəsr olduğunu bildirdi.

Professor Qulu Məhərrəmli, şair Qəşəm Nəcəfzadə, jurnalist Murad Qoçuoğlu, hərbi jurnalist Səfər Mahmudzadə, jurnalist Lalə Hüseynova, şair Dayandur Sevgin, ehtiyatda olan polkovnik-leytenant Təranə Məmmədova və başqaları kitabın yüksək bədii məziyyətlərindən danışdılar.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

Məsul katib
polkovnik-leytenant İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Əbülfət QASIMOV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1011
Nüsxə 4710